**UOT 73\76**
**ORCID: 0009-0007-4677-1432**
**https://doi.org/10.52094/2221-7584.2025.37.203**

**Sitarə Hüseynli Elçin**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**sitare.huseynli@inbox.ru**

# NƏSİBƏ ŞÜKÜROVA YARADICILIĞINDA KERAMİKANIN FƏLSƏFİ QATI

**Xülasə:** Nəsibə Şükürovanın keramika yaradıcılığı estetik və fəlsəfi dərinliyi ilə seçilir. Onun əsərləri, sadəcə gözəllik yaratmaqdan çox, həyatın və varlığın mənasını araşdırır. Hər bir əsər, simvollar və formalar vasitəsilə zaman, təbiət və insanın daxili dünyası haqqında fəlsəfi suallar təqdim edir. Təbii materiallardan və fərqli texnikalardan istifadə edərək, sənətçi insanla təbiət arasındakı əlaqəni və həyatın müxtəlif aspektlərini ifadə edir. Bu əsərlər, tamşaçını düşünməyə və mənaları dərindən hiss etməyə dəvət edir və beləliklə, keramikanı sadəcə sənət deyil, fəlsəfi bir ifadə vasitəsinə çevirir.

**Açar sözlər:** fəlsəfi dərinlik, simvolizm, təbii materiallar.

Nəsibə Şükürova yaradıcılığı Azərbaycan keramika sənətində özünəməxsus fəlsəfi dərinliyi ilə seçilir. Onun əsərləri yalnız estetik zövq deyil, eyni zamanda düşüncə və dərin mənaların təzahürüdür. N. Şükürovanın keramika sənətinə yanaşması adi forma və dekorasiya yaratmaqdan daha uzağa gedərək, həyatın, insanın və kainatın mahiyyətini araşdırır. Onun yaratdığı əsərlər, məkan və zaman sərhədlərini aşaraq, izləyiciləri dərin fəlsəfi əsərləri ilə heyran edir.

Sənətçinin keramika işlərində tez-tez qarşılaşdığımız simvollar və elementlər, müəyyən bir hekayə və ya fəlsəfi fikir təqdim edir. Hər bir əsəri özündə həyatın müxtəlif aspektlərini əks edir; birinin naxışlarında sonsuz dövrlərin təkrarını, digərinin səthində isə daxili sükutun izlərini görmək mümkündür. Bu əsərlər vasitəsilə N. Şükürova, insanın həyatla olan əlaqəsini, təbiətlə olan birliyini və zamanın axışını fəlsəfi bir baxış bucağından dəyərləndirir.

Şükürova keramikada fərqli texnikalardan istifadə edərək, əsərlərinə xüsusi faktura və rəng çalarları ilə dinamizm qatır. Bu, onun fəlsəfi yanaşmasının ifadə tərzinə çevrilir; əsərlərdəki faktura fərqliliyi həyatın kəskin

və ya hamar tərəflərini simvolizə edir, hər bir rəng isə emosional ton yaratmaqla, insana əsəri yalnız görməklə kifayətlənməməsi, onu hiss etməsi və dərk etməsi üçün fürsət verir. Beləliklə, onun sənətindəki hər bir detal məna yüklüdür və tamaşaçının şəxsi təcrübəsinə uyğun olaraq yeni mənalar qazanır [1].

Sənətçi üçün keramika, sadəcə bir sənət obyekti deyil, insanın özü ilə olan dialoqudur. O, əsərləri ilə fəlsəfi suallar ortaya qoyur: insanın kainatdakı yeri nədir? Zamanın axışı necə başa düşülməlidir? Bu suallar əsərlərində yalnız abstrakt formada deyil, konkret vizual elementlər vasitəsilə də öz əksini tapır. Bu yanaşma, Nəsibə Şükürovanın keramika sənətinə verdiyi töhfəni dərinləşdirir və onu sırf estetik obyekt yaratmaqdan daha çox, fəlsəfi düşüncənin ifadəsinə çevirir.

N. Şükürovanın keramika sənətindəki fəlsəfi qat onun əsərlərini daha da cazibədar edir və sənətsevərləri bu əsərlərlə dərindən tanış olmağa təşviq edir. Bu yaradıcılıq, Azərbaycan keramika sənətində yeni bir mərhələ yaradaraq, təkcə milli sənətin deyil, ümumbəşəri fəlsəfi düşüncənin inkişafına da müsbət təsir göstərir.

Yüksək bədii zövqlə, incə duyumu, düşündürücü ideyaları və məharətlə torpaqdan yaratdığı qeyri-adi əsərləri ilə seçilən Nəsibə Şükürova yaradıcılığı Azərbaycan dekorativ-tətbiqi sənətinin inkişafında mühüm rol oynamışdır. Sənətkar özünəməxsus bir şəkildə yaratdığı keramika nümunələri ilə izləyicilərin zövqünü oxşamaqla qalmır, həm də onlara həyata dair fərqli baxış bucaqları təqdim edir.

Nəsibə Şükürova əsərlərini əsasən bir neçə üslubda izləyicilərə təqdim edir. Rəssam öz yaradıcılğında fəlsəfi mövzulara toxunur və tamaşaçıları düşünməyə vadar edir. Onun milli dəyərlərimizə bağlılığı, milli ruhla işlədiyi əsərləri Azərbaycan xalqının taleyini əks etdirərək, insanı öz tarixini unutmamağa çağırır. Eyni zamanda xalqımızın keçdiyi məşəqqətli yola rəssam öz əsərlərində yer verərək, milli köklərə bağlılığını bizə bir daha göstərir. Nəsibə xanım böyük zövqlə yaratdığı keramika nümunələri yüksək estetik dəyərə malikdir [2].

Nəsibə xanımın yaradıcılığında şamoddan işlədiyi əsərləri xüsusi yer tutur. Onun yaradıcılığına nəzər saldıqda, keramika sahəsində dekorativ formalara daha çox üstünlük verdiyi görülür. Elastik gildən hazırladığı keramika nümunələri ilə rəssamın bu sənəti sözün əsl mənasında yaşadığı, öz ruhunda hiss etdiyi açıq-aşkar görülür. N. Şükürovanın yüksək zövqlə yaratdığı

bədii keramika nümunələri insanın ruhuna toxunaraq, dərin emosiyalarımızı üzə çıxarır və insanı mənəvi axtarışa sürükləyir.

Nəsibə Şükürova fəlsəfi mözvularda yaratdığı əsələri ilə insanı özünə cəlb edərək, düşüncələrimizin dərin qatlarına enir və bizi gerçəkliklərlə üz-üzə qoyur. Günümüzün problemləri, cəmiyyətdə baş verən dəyişikliklərin insan həyatına təsiri rəssamı düşündürən mövzulardan olmuşdur. Qırmızı gil, şamod və dəmir tozundan istifadə edərək hazırladığı "Həqiqət" adlı əsəri bizə məhz bu günki dövr və cəmiyyətimizdən xəbər verir.



**Şəkil 1.** *"Həqiqət"*

Yarımçıq barmaqlar və barmağın üzərindəki bir dairə ilə rəssam öz fikirlərini tam olaraq ifadə etmişdir. Bu əsər sənətsevərlərə, eləcə də bu sənətlə yaxından maraqlananlara sadə görünsə də əsərin dərin açıqlaması insanı bəşəriyyət yaranandan bəri cavabsız qalan suallardan birinə elmi və fəlsəfi cəhətdən yanaşaraq sonsuz müzakirə mövzusuna çevirir. Müasir dövrümüzdə hər kəs dünyanı barmaqlarında oynatmaq istəyir və dünyanı idarə edə biləcəyini düşünür. Məhz bu mövzuya maraq salan rəssamın əsərində dünyanın necə kiçildiyi bizə əks olunur və insanı dünyanın taleyini, yaşamını sorğulamağa vadar edir. Dünyada baş verən hadisələrə, həmçinin də müharibələrə qarşı çıxan Nəsibə xanım qeyd edir ki, dünya barmaqda oynadılacaq qədər asan və kiçik deyil.

Rəssamın fikrincə hər kəsin öz dünyası var və onu da yaşamalıdır. Müasir tendensiyaya uyğun olaraq yaratdığı əsərində dünyada baş verən hadisələrə və müharibələrə öz reaksiyasını bildirən rəssam, cəmiyyətimizin problemlərinə səssiz qalmadığını bir rəssam olaraq öz yaradıcılığında əks etdirərək insanları dərin emosiyalara boğur. Həqiqət axtarışında olan Nəsibə xanım sanki, onu dünyada deyil, insanların qəlblərində görmüşdür.

Nəsibə Şükürova yaradıcılığında fəlsəfi məzmunlu digər maraqlı əsəri "Vəhdət"dir. Vəhdət insanların fərqliliklərinə baxmayaraq, onların bir araya gəlməsi, bir-birini tamamlamasıdır. Müxtəlif mədəniyyətlər və insanların bir-biri ilə yaşamasının, paylaşmanın önəmini vurğulayan bir anlayışdır. Həyatın da müəyyən bir harmoniyası vardır, hansı ki, müxtəlif etnik köklərin, mədəniyyətlərin, təbiət və insanın özünəməxsus bir harmoniyası vardır. Həmçinin də kişi və qadının bir-biri ilə münasibəti, qarşılıqlı hörməti onların vəhdətidir. Bu müxtəlifliklər içində həyatın harmoniyasını tapmaq, kişi və qadının fərqli, eyni zamanda da bir bütün olması həyatın tənzimlənməsi üçün vacib faktordur. Vəhdət yalnızca bir araya gəlmək deyil, bir-birini anlamaq və hörmət etməkdir. Bu həyatın qanunu, həm də insanlıq üçün önəmli məqamlardan biri hesab olunur. "Vəhdət" əsərində kişi və qadının bütünləşməsi, birləşməsi, qarşılıqlı hörmət və sevgi bağı ilə bir-birlərinə tutunmaları izləyicilərə onların harmoniyasını izah edir.



**Şəkil 2.** *"Vəhdət"*

Qara qranitin üzərində şamoddan işlənilən əsərdə Nəsibə xanım güclü forma hissiyyatını, dərin düşüncələrini və yüksək keramika məharətini sərgiləmişdir. Hərtərəfli şəkildə çox maraqlı baxılan əsərdə fəlsəfi mözvuya müraciət edən rəssam, bizlərə estetikanın vəhdətini, öz ruhundan qopardığı gil parçasında əks etdirmişdir. Dekorativ formaya öndən baxıldıqda sanki bir kontrabasa bənzəyir. Əsərin yarısını kişi, digər yarısını isə qadın bədəni təsvir edən Nəsibə xanım vəhdəti kişi və qadın bədənlərində görmüş, həyatın onların vəhdətindən başladığını hiss etmişdir.

Ümumilikdə isə kompozsiyanı musiqi aləti ilə tamaşaçılara təqdim edən Nəsibə xanım, həyatı və vəhdəti kişi və qadının ahəngdə olması, onların ruhlarının qovuşmasında görmüşdür. Kişi və qadın sanki bir melodiyadır, hansı ki bu melodiya insanın qəlbinə nüfuz edir, onların həyat axışlarının musiqili vəhdəti ilə birləşərək, insanın həyatının bir not kimi duyulmasını təmin edir. Rəssam qeyd edir ki, kişi və qadın əslində birdirlər və onlar ayrı-ayrılıqda bir ifadə kəsb etmirlər. Onun əsərləri bizləri fəlsəfənin düşündürücü qatlarına apararaq, rəssamın görə bilmədiyimiz hisslərini qavramağa kömək edir.

Rəssamın düşünməyə vadar edən digər əsəri "Pərvanə ömrü"dür. Azərbaycan ədəbiyyatında və təsviri sənətində pərvanə mühüm simvollardan biridir. Bu, fərdi həyatın, sevginin, itkilərin və insanın öz iç dünyası ilə mübarizəsinin simvolu olaraq görülə bilər. Müxtəlif ədəbiyyat nümunələrində pərvanənin obrazı, insanlar arasındakı emosional bağlılıqları və həyatın keçici, çətin, məşəqqətli yolların olmasına baxmayaraq, öz yolundan dönməyərək, onların üzərinə gedən, özünü fəda edən bir obrazdır. Nəsibə xanım da bu mövzunu əsas götürərək əsərini özünəməxsus şəkildə ərsəyə gətirmiş və kompozisiyasını sənətsevərlərə təqdim etmişdir.

Rəssam dekorativ formada qanadının bir tərəfi tamamilə yanan pərvanə təsvir etmişdir. Əsəri özünü hər zaman fəda edən insanlara həsr edən rəssam, onların eyni ilə bir pərvanəyə bənzətmişdir. Əriyən şam üzərində pərvanənin insan həyatına bənzədilməsi, həyatda qarşılaşdığımız məhdudiyyətlər, seçimlər və nəticələrə dair dərin bir simvolizmdir.

Pərvanə işığa doğru uçur, bu da insanın arzularına, hədəflərinə çatmaq üçün verdiyi mübarizəni əks etdirir. Şamın əriməsi və azalması insan həyatının sonu olduğuna bir işarədir. Bəzən insan istədiyi məqsədə çatmaq üçün risklər almalı, çətinliklərlə üzləşməlidir. Pərvanənin şama yaxınlaşması, insanın arzularına olan bağlılığını, lakin bununla yanaşı, həyatın təhlükələrini və məhdudiyyətlərini yansıtmaqdadır.

Nəsibə Şükürova dekorativ formada şamod və emal texnikasından istifadə edərək, yüksək zövqlə seçdiyi rəng çalarları ilə əsərə daha da dərinlik qatmışdır. Öz forma duyumu ilə seçilən Nəsibə xanım qəlbindən qoparıdığı əsərləri ilə izləyiciləri heyran edir.



**Şəkil 3.** *"Pərvanə ömrü"*

Nəsibə xanım bir çox sərgilərə qatılaraq öz incəsənətini izləyicilərə nümayiş etdirir. Onun yaradıcılığı müasir Azərbaycan keramika sənətinin inkişafında töhfələr verir, gənclərin bu sənət sahəsinə marağını daha da artırır. İstər forma hissiyatı, istərsə də seçdiyi materiallar ilə, özünəməxsus tərzdə yaratdığı əsərlərini izləyicilərə təqdim edən rəssam, onlarda öz əsərlərində xüsusi bir maraq oyadaraq, hər kəsi təəccübləndirməyə nail olmuşdur.

Öz sənət dünyasını yüksək məharət və estetika ilə bizlərə təqdim edən rəssam, yaradıcılığının dərin izləri ilə insan zövqünü oxşayır. Nəsibə xanım istifadə etdiyi materiallar, rənglər və texnikalar ilə əsərlərinin dərinliyini artırır, öz sənət dünyasını daha içdən ifadə etməyə çalışır [4].

Nəsibə Şükürovanın keramika sənəti estetik zövqün və fəlsəfi düşüncənin vəhdətində formalaşmış xüsusi bir ifadə tərzini əks etdirir. Onun əsərləri sadəcə gözəllik yaratmaqdan daha çox, həyatın, varlığın və insanın daxili dünyasının təzahürünə çevrilir. Şükürova üçün keramika bir material

deyil, fikir və düşüncənin maddi dünyada canlanma vasitəsidir. Onun əl işləri insanı düşünməyə və duyğuların dərin qatlarına enməyə çağırır.

Keramikada istifadə olunan simvollar və formalar, sadəcə dekorativ məqsəd daşımır; hər bir naxış və element həyatın müxtəlif aspektlərinin ifadəsi olaraq meydana gəlir. Məsələn, dairəvi formalar sonsuzluğu və davamlılığı simvolizə edə bilər, təbii fakturalar isə həyatın qarışıqlığı və harmoniyasını əks etdirir. Bu yanaşma, Şükürovanın əsərlərinə yalnız vizual deyil, eyni zamanda fəlsəfi dərinlik qatır, çünki hər bir detal müəyyən bir məna daşıyır və izləyicinin şəxsi təcrübəsinə uyğun olaraq fərqli mənalar qazana bilər [3].

Sənətçinin yaradıcılığında zaman və məkan anlayışlarının xüsusi bir rolu var. Onun əsərlərində zamanın axışı hiss olunur, lakin bu axış hər zaman düzxətli deyil; müəyyən anlarda sanki zaman dayanır və tamaşaçını həmin məqamın dərinliyinə çəkməyə çalışır. Bu isə, həyatın sürətlə axan təbiətini və insanın zaman qarşısındakı mövqeyini araşdırmağa imkan verir.

Nəsibə Şükürovanın keramikaları, yalnız Azərbaycan sənətinin deyil, ümumilikdə bəşəri sənətin də fəlsəfi dərinliklərə malik nümunələri arasında xüsusi yer tutur.

**Ədəbiyyat siyahısı:**

1. Əliyev Ziyadxan. Keramikanın fəlsəfi-düşündürücü qatı // “Kaspi” qəzeti. 2015, 31 yanvar.
2. Rasim Əfəndiyev. Azərbaycan xalq sənəti. Bakı, İşıq, 1984.
3. Sumqayıtlı rəssam-keramistin sənət dünyası. URL: https://azertag.az/xeber/sumqayitli_ressam_keramistin_senet_dunyasi-2466182
4. Şükürova N. Ş. Müstəqillik dövrü azərbaycan keramikasında ənənə və müasirlik: Sənətşünaslıq üzrə fəls. dok. ... dis. avtoref. Bakı, 2003, 41 s. URL: https://aak.gov.az/upload/dissertasion/s_n_t_nasl_q/Avtoreferat_az%C9%99rb.pdf

**Ситара Гусейнли**

## ФИЛОСОФСКАЯ СОСТАВЛЯЮЩАЯ КЕРАМИКИ В ТВОРЧЕСТВЕ НАСИБЫ ШЮКУРОВОЙ

**Резюме:** Насиба Шюкурова выделяется своей керамикой, обладающей эстетической и философской глубиной. Её работы не просто создают красоту, но и исследуют смыслы жизни и бытия. Каждое произведение через символы и формы поднимает философские вопросы о времени, природе и внутреннем мире человека. Используя натуральные

материалы и различные техники, художница выражает связь между человеком и природой, а также разные аспекты жизни. Эти произведения приглашают зрителя задуматься и глубже ощутить их значения, превращая керамику не просто в искусство, но и в средство философского выражения.

***Ключевые слова:*** философская глубина, символизм, натуральные материалы.

**Sitara Huseynli**

**PHILOSOPHICAL DIMENSION OF CERAMICS IN THE WORK OF NASIBA SHUKUROVA**

**Summary:** Nasiba Shukurova's ceramic artistry is distinguished by its aesthetic and philosophical depth. Her works go beyond mere beauty, exploring the meanings of life and existence. Each piece presents philosophical questions about time, nature, and the human inner world through symbols and forms. By utilizing natural materials and various techniques, the artist expresses the connection between humanity and nature, as well as different aspects of life. These works invite the viewer to reflect and deeply feel their meanings and transforming ceramics into a medium of philosophical expression rather than just an art form.

***Key words:*** philosophical depth, symbolism, natural materials.